# Azərbaycan iqtisadi fikir tarixinin istedadlı tədqiqatçısı

***Çağdaş Azərbaycan və Türkiyə Cümhuriyyətinin dövlət maliyyəsi, ölkəmizin qlobal iqtisadiyyata inteqrasiyası, Mustafa Kamal Atatürk, Heydər Əliyev, Turqut Ozal kimi dahi şəxsiyyətlərin iqtisadi-fəlsəfi düşüncələrinin tədqiqatçısı, orijinal dərsliklərin müəllifi iqtisad elmləri doktoru Dünyamalı Əmir oğlu Vəliyevin 70 yaşı tamam olur. Müraciət etdiyi iqtisadi problemlərdə hər zaman məhz mühüm hədəfləri seçməsi onun elmi yaradıcılığı üçün səciyyəvi cəhətdir. Alimin tədqiqatları Azərbaycan və Türkiyə iqtisadiyyatının, bütövlükdə, türk birliyinin möhkəmləndirilməsinə yönəldilmişdir. Bu əsərlər özlüyündə türk xalqlarının xoşbəxt gələcəyini qurmaq məramından qaynaqlanır.***



Dünyamalı Vəliyev 1942-ci ildə böyük alimlər, sənətkarlar yetirən Borçalı mahalının Qasımlı kəndində anadan olmuşdur. BDU-nun İqtisad fakültəsində müvəffəqiyyətlə təhsil aldığı illərdə gələcək həyat yolunu müəyyənləşdirmiş və onun böyük potensialını görüb layiqincə dəyərləndirən müəllimlərinin xeyir-duası ilə ömrünü çətin elmi axtarışlara sərf etməyi qərara almışdır. Elmlə praktikanın vəhdətinin nə qədər vacib və səmərəli olduğunu yaxşı bilən gənc iqtisadçı bir müddət respublikanın bank sektorunda, ali məktəb sistemində çalışmışdır. 1971-ci ildə Azərbaycan EA-nın Şərqşünaslıq İnstitutunda "Müasir Türkiyənin dövlət borcları" adlı maraqlı dissertasiya işini müdafiə edərək iqtisad elmləri namizədi alimlik dərəcəsi almışdır.

Nəhayət, məqsədyönlü arzu yolları 1979-cu ildə onu Azərbaycan EA-nın Şərqşünaslıq İnstitutuna gətirib çıxarmışdır. Burada baş elmi işçi, Türkiyənin tarixi və itisadiyyatı şöbəsinin müdiri və institutun elmi işlər üzrə direktor müavini kimi səmərəli fəaliyyət göstərmişdir.

Yorulmaq bilmədən çalışan, tədqiqat dairəsini genişləndirən D.Vəliyev 2010-cu ildə AMEA-nın İqtisadiyyat İnstitutunda "Azərbaycanın qlobal maliyyə-iqtisadi mühitə inteqrasiyasının aktual problemləri" mövzusunda doktorluq dissertasiyasını müdafiə edərək iqtisad üzrə elmlər doktoru dərəcəsinə yiyələnmişdir. Hazırda elmi fəaliyyətini Şərqşünaslıq İnstitutunda "Şərq-Qərb" şöbəsinin müdiri vəzifəsində davam etdirir. 10 kitab və 100-dən çox elmi məqalənin müəllifidir. Onun əsərlərinin ümumi həcmi 200 çap vərəqindən çoxdur. Bakı, Moskva, Kiyev, Tbilisi, Ankara, İstanbul, Bursa, Trabzon, Tehran, Tokio, Heidelberq (Almaniya) şəhərlərində keçirilmiş konfrans, simpozium və seminarlarda Azərbaycan elmini layiqincə təmsil etmişdir.

Alim xalqın müasir iqtisadi fikri baxımından diqqəti cəlb edən dəyərli əsərlər yazmışdır. "Türkiyənin dövlət maliyyəsi və sosial-iqtisadi inkişafı", "Qloballaşma şəraitində Azərbaycanın beynəlxalq bazarlara inteqrasiyası: təmayüllər, problemlər, perspektivlər" , "Türkiyə. Turqut Ozal və iqtisadi möcüzələr", "Azərbaycanın qlobal iqtisadiyyata inteqrasiyası" və digərlərini bu sıraya aid etmək olar.

Ötən əsrin 90-cı illərində yenicə müstəqillik yoluna çıxmış respublikamız üçün Türkiyənin dövlət maliyyəsi, ölkənin sosial-iqtisadi inkişafına onun təsirini öyrənmək mühüm əhəmiyyət kəsb edirdi. D.Vəliyev böyük bir tarixi dövr üçün qardaş ölkənin vergi sistemini, onun dəyişmə meyllərini tədqiq etməklə Azərbaycan üçün mühüm təcrübə məktəbini aşkarlamış oldu. Müstəqilliyimizdən xeyli əvvəl yazılmağa başlanmış bu əsər müəyyən mənada alimin uzaqgörənliyindən xəbər verir. Qeyd edək ki, sovet dövründə hakim ideologiya bu cür mövzulara çox həssaslıqla yanaşılmasını tələb edirdi. Sübhəsiz, qonşu kapitalist ölkələrinin inkişafı birmənalı qarşılanmırdı. Lakin, tədqiqatçı alim bu çətinliklərin öhdəsindən gələ bilmişdir. D.Vəliyevin öz tədqiqatı üçün Türkiyəni obyekt seçməsində təsadüf və zərurətin hansı nisbətdə olduğunu söyləmək çətin olsa da, üstündən 50 ilə yaxın bir dövr keçdikdən sonra bu ölkənin bizim üçün nə qədər doğma, vacib olması bir daha tarix tərəfindən sübut olunmuşdur. Tədqiqatdan məlum olur ki, Türkiyə vergi sisteminin üstünlüyü vergi qoyuluşunun ənənəvi, müasir prinsip və strukturlarından eyni zamanda istifadə edilməsindədir.

Müəllifin araşdırmasına görə, Türkiyənin vergi sistemi (gömrük vergiləri) bir tərəfdən səmərəli xarici ticarəti stimullaşdırırsa, digər tərəfdən milli iqtisadiyyatın, xüsusilə də istehsalın inkişafına təkan verir, ölkənin texniki və texnoloji imkanlarının artırılmasına xidmət edir. D.Vəliyevin apardığı təhlillər göstərir ki, Türkiyədə vergilər dövlət tənzimlənməsinin yeganə vasitələri deyildir. Milli iqtisadiyyatın idarə olunması və tənzimlənməsinin bütün aspektlərinin (iqtisadi, hüquqi, maliyyə, siyasi və s.) koordinasiya mexanizmi kompleks təhlil edilməli və müəyyənləşdirilməlidir. Bu kitabla ölkəmiz Türkiyə kimi doğma, yaxın bir ölkənin təcrübəsini öyrənmək imkanı əldə etdi.

D.Vəliyevin tədqiqatçılıq fəaliyyətində həmişə bir dinamizm hiss olunur. Onun "Azərbaycanın qlobal iqtisadiyyata inteqrasiyası" kitabı əvvəlki əsərlərinin davamı, inkişafı və ümumiləşdirilməsi baxımından önəmlidir. Kitabda respublikamızda ilk dəfə olaraq Azərbaycan iqtisadiyyatının ümumi mənzərəsi, ulu öndər Heydər Əliyevin və Prezident İlham Əliyevin elmi konseptual əsaslara söykənən iqtisadi siyasət kursu kompleks şəkildə qloballaşma prizmasından tədqiq edilmişdir.

Azərbaycanın son 10 il ərzində daxili və xarici iqtisadi siyasətinin elmi-nəzəri, praktiki təhlilindən alınan nəticə ondan ibarət olur ki, bu siyasət möhkəm təməllərə əsaslanmaqla ölkənin, xalqın, millətin firavan gələcəyinə tuşlanmışdır. Həmçinin, bu siyasət milli, iqtisadi maraq və mənafelərə zərər gətirməyən bir siyasətdir. Müəllif sahib olduğu zəngin bilik və təcrübəyə əsaslanaraq qloballaşma dövründə dünyada gedən iqtisadi prosesləri incəliklərinə qədər təhlil edir, Azərbaycan iqtisadiyyatının bu dəyişikliklərə necə uyğunlaşdığını müəyyən etməyə çalışır, bu zaman yaranan problemləri aşkara çıxarır, onların aradan qaldırılması yolları haqqında sanballı tövsiyələrini verir. Həmin tövsiyələr yalnız kitab səhifələri arasında qalmır, yüksək idarəetmə orqanlarına təqdim olunur. Onun əldə etdiyi elmi nəticələr respublikanın rəsmi mətbuat vasitəsi olan "Xalq qəzeti"ndə mütəmadi şəkildə ictimaiyyətin diqqətinə çatdırılır.

Dünyamalı Vəliyev sübut edir ki, qloballaşma dövründə dərinləşən liberallaşma meylləri milli dövlət mənafelərini nəinki aradan qaldırmır, hətta onun qorunması həyati əhəmiyyət kəsb edir. Bəzi ölkələrdə, müəllifin özünün dediyi kimi, "iqtisadi proseslərin qlobal təbiəti ilə onların milli təsərrüfat çərçivəsində tənzimlənməsi arasında uyğunsuzluqlar artır" (səh.60). Lakin bu uyğunsuzluqlar və ziddiyyətlər mütləq bir məna kəsb etmir. Milli dövlətlərin apardıqları siyasət vasitəsilə "qızıl orta"nı tapmaq, qloballaşma proseslərindən daha çox faydalanmaq mümkün olur. Təsadüfi deyildir ki, yekun fəsildə (XI fəsil) tədqiqatın nəticələrinin milli iqtisadi təhlükəsizliyin, milli iqtisadi maraqların qorunması baxımından əhəmiyyətlilik dərəcəsi müəyyən edilir.

Müəllifin tədqiqat işləri həm zəngin ədəbiyyat mənbələrindən istifadəyə, həm də faktoloji cəhətinə (konkret faktlara istinada) görə diqqəti xüsusilə cəlb edir. Hər bir fikir və mülahizə dünya miqyaslı iqtisadçıların, siyasətçilərin əsərlərindən gətirilmiş istinadlarla tamamlanır, onların doğru-düzgünlüyü sübuta yetirilir. Beləliklə, müəllif cəsarətlə öz fikirlərini irəli sürür.

Alimin dərslik yaradıcılığı sahəsindəki xidmətləri də xüsusi qeyd olunmalıdır. İnzibati amirlik sisteminin tam əksi olan bazar münasibətlərinə keçilməsi iqtisadi təhsil sistemini yeni dövrün tələblərinə uyğunlaşdırmağı, iqtisadiyyat üzrə tamamilə yeni dərsliklər hazırlamağı tələb edirdi. Bu sahədə də o, çox işlər görmüşdür. Respublikamızda ilk dəfə olaraq yazılmış üç dərslik - "Beynəlxalq iqtisadiyyat" (Bakı, Azərbaycan Universitetinin nəşriyyatı, 2000, 328 səh.), "Beynəlxalq maliyyə" (Bakı, Azərbaycan Universitetinin nəşriyyatı, 2000, 328 səh., M.Rəhimovla birgə), "Vergi hüququ" (Bakı, 2003, 482 səh., Y. Balakişiyev və başqaları ilə birlikdə) onun böyük səyləri və rəhbərliyi ilə hazırlanmışdır.

Respublikamızda müstəqillik əldə edildikdən sonra iqtisadi biliklərin həmin sahələrində açıq-aşkar çatışmazlıq hiss edilirdi. Gənc respublikanın iqtisadi maarifçilik sahəsində əhəmiyyətli rol oynayan həmin dərsliklərə Azərbaycanın Təhsil Nazirliyi tərəfindən qrif verilmişdir və ali təhsil sistemində geniş istifadə edilir. Kitablardan biri - "Beynəlxalq iqtisadiyyat" daha da təkmilləşdirilərək 2012-ci ildə yenidən nəşr edilmişdir.

İqtisadçı alimin ömür yolunu izlədikdə onun bütün əsərlərinin böyük zəhmət sayəsində ərsəyə gəldiyinin şahidi oluruq. 1971-ci ildə namizədlik, 2010-cu ildə yəni, 40 il sonra doktorluq dissertasiyalarını müdafiə etməsi, bu tarix kəsiyində çap etdirdiyi çoxsaylı kitab və məqalələr ondan xəbər verir ki, tədqiqatçılıq, əsil yaradıcılıq işi zaman tələb edir. Burada hansısa sürətləndirici bir halın olması, "möcüzənin baş verməsi" mümkün deyildir. D.Vəliyevin dövrün iqtisadi problemlərinə baxışında ciddi bir obyektivlik müşahidə olunur. O, belə hesab edir ki, problem deyilməlidir və təkcə bununla da alimin işi bitmiş sayılmamalıdır, problemin həlli üçün dərin araşdırmalar aparılmalıdır.

D.Vəliyev təkcə elmi araşdırmalarla və dərslik yazmaqla kifayətlənmir. O bir neçə jurnalın, o cümlədən "İpək yolu", "Turizm və qonaqpərvərlik" jurnallarının redaktorudur, mütəmadi olaraq beynəlxalq və ümumrespublika konfransları təşkil edir və xarici simpoziumlarda iştirak edir.

D.Vəliyev həm alim, həm də bir insan kimi fəal həyat mövqeyi tutmuşdur. Millətsevərlik və vətənpərvərlik onun həyatının mənasıdır. O, əsərlərində, elmi məclislərdəki çıxışlarında peşəkar iqtisadçı kimi düşüncələrini ortaya qoymaqla bərabər, vətənpərvərliyi, Azərbaycanın mədəniyyət və incəsənətini təbliğ edir, erməni terrorizmi və cinayətlərinin mahiyyətini açır. Alimin çoxşaxəli yaradıcı həyatının bu istiqamətləri üzrə "Erməni terrorizmi və cinayətləri: Azərbaycanda, Türkiyədə və dünyada" (1994), "Borçalının söz xəzinəsi"(2003), "Karyera: şəxsi müvəffəqiyyətin strategiyası"(2005) adlı kitabları da nəşr olunmuşdur. 2011-ci ildə çap edilmiş "Yüksəliş yolları" gənclərə ünvanlanmışdır. Hələ 1991-ci ildə D.Vəliyev ünlü türk professoru Utkan Qocatürkün "Atatürk" kitabını Azərbaycan dilinə çevirərək qardaş ölkənin sosial-iqtisadi həyatı ilə maraqlanan geniş oxucu kütləsinə ərməğan etmişdir. Müəllif kitaba yazdığı ön sözdə atatürkçülüyün, kamalizmin mahiyyətini açıqlamış, Azərbaycan və Türkiyə arasında əlaqələrin dövrün tələblərinə uyğun inkişaf etdirilməsi zərurətini önə çəkmiş, insanları azadlığa, müstəqilliyə səsləyən fikirlərə geniş yer vermişdir. Bu kitabın çevrilməsi zamanı o, həmçinin doğma dilimizin saflaşması və zənginləşməsinə də xidmət etmişdir. Oxucular 20-21 il öncə məhz həmin kitab vasitəsilə dilimizin ənginliklərini daha dərindən hiss etmiş, nə qədər unudulmuş, yaxud az işlənən, yerini yabançı ifadələrə vermiş təmiz türk söz dünyasına baş vurmaq imkanı qazanmışlar. "Millət vəkili", "çağdaşlaşma", "dəstəkləmək", "bölgə", "varyeməz", "yön" və s. bu kimi sözləri misal çəkmək olar.

Dünyamalı müəllim xaraktercə rahat bir insandır. Bu dünyada tələsmədən və ləngimədən yaşamağı, aza qane olmağı, insanın özü ilə olmasını, hisslə deyil, ağılla davranmağı əsas tutur. Onunla bir kollektivdə işləmək, yol yoldaşı olmaq, işbirliyi qurmaq, əməkdaşlıq etmək adamda ancaq müsbət enerji yaradır. Dünyamalı müəllim bir iman adamı, mənəviyyat daşıyıcısıdır. Ailə başçısı, elmi işçi, müəllim kimi böyüklük, ağsaqqallıq, rəhbərlik etməyi bacaran insandır. O, həm də bir dövlət adamıdır. Türkçülüyün böyük carçısı və tədqiqatçısıdır, bütün varlığı ilə torpağına, millətinə, elinə bağlıdır.

İnsan intellektual, etik, hüquqi, mədəni davranışlara nail olmaqla inkişaf edir. Belə deyim var: elm beyni, sənət ürəyi, din isə ruhu qidalandırır. Ətrafındakı insanların Dünyamalı müəllimə böyük hörmətlə yanaşmasının səbəbi də onun elm, sənət və dinlə özünü daim zənginləşdirməsidir. D,Vəliyev zəhmətə alışan, həyatın mənasını bunda görən adamdır.

Peyğəmbərimiz insan ömrünün mənasını belə dəyərləndirmişdir: "İnsanların ən xeyirlisi ömrü uzun, əməlləri gözəl olandır". Bu gün Dünyamalı müəllim böyük həvəslə, şövqlə tədqiqatlar aparır, "Azərbaycan iqtisadiyyatı" haqqında yeni dərslik üzərində çalışır, elmə gələn gənclərdən xeyirxahlığını, köməyini əsirgəmir. Bir sözlə, xoş niyyətli bir insan, işıqlı şəxsiyyət olan Dünyamalı Vəliyev çox mənalı və örnək ola biləcək bir ömür sürür.

***Asəf NADİROV,***
***akademik***
***Xosrov KƏRİMOV,***
***BDU-nun dünya iqtisadiyyatı kafedrasının dosenti***



# "GƏLƏRSƏN - GÖRƏRSƏN" qalası



## Şəki tarixinə ötəri bir nəzər

***Şəki rayonu (1968-ciilədək Nuxa) 1930-cu ildə təşkil olunmuşdur. 1963-cü ildə rayon ləğv edilərək ərazisi Vartaşen (indiki Oğuz) rayonuna verilmiş, 1965-ci ildə isə yenidən müstəqil rayon statusu almışdır. Rayon şimal-şərqdə Rusiyanın Dağıstan MR ilə həmsərhəddir. Şəhərin ərazisi dəniz səviyyəsindən 500-850 metr hündürlükdə yerləşir. Baş Qafqaz silsiləsinin qarlı zirvələrinin yüksəkliyi bəzi yerlərdə 3000-3500 metrə çatır. Dağlarda Yura, Təbaşir, dağ ətəklərində Neogen və Antropogen çöküntüləri yayılmışdır.***

Şəki Azərbaycanın tarixi şəhərlərindən və ən qədim mədəniyyət mərkəzlərindən biridir. Şəhər və rayon ərazisi tarixi abidələr və qalalarla zəngindir. Şəki Xan sarayı, Aşağı Karvansara, Yuxarı Karvansara, Kiş məbədi və s. təkcə bu diyarın deyil, bütün Şərqin ən möhtəşəm abidələrindəndir.

Vaxtilə Şəkidə məşhur sənətkarlar məhəlləsi mövcud olmuşdur. Bu sənətkarların yaratdıqları dulusçuluq, zərgərlik, şüşə və metal məmulatları, ipək parça və xam ipək məhsulları dünyanın əksər ölkələrinə və şəhərlərinə ixrac edilmişdir. Buranın əhalisi həmçinin ticarət, bağçılıq, tütünçülük və sair işlərdə məşğul olub.

Şəki haqqında ərəb, fars, türk, gürcü mənbələrində, həmçinin rus və orta əsr Avropa müəlliflərinin əsərlərində geniş məlumatlar verilir. Təkzibedilməz tarixi və arxeoloji faktlarla sübut edilmişdir ki, Şəkinin əsası eramızdan əvvəl VII əsrdə qoyulub. Azərbaycanın mərkəzi şəhərlərindən biri kimi tanınmış Şəki tarixən vilayət, knyazlıq, əmirlik və nəhayət xanlıq mərkəzi kimi mövcud olub. Bu il şəhərin əsasının qoyulmasının 2700 illiyi təntənə ilə qeyd edilib.

### Qüdrətdən səngərli, qalalı dağlar...

Başı buludları dələn dağlarımız, səfalı yaylaqlarımız zaman-zaman qürur mənbəyimiz olmaqla bərabər, həm də babalarımızın isti yuvası, sığınacaq yeri, yadelli işğalçıların hücumlarına sinə gərən sipər, müdafiə istehkamlarımız olmuşlar. Ulularımız sıldırım qayalı, dərin yarğanlı belə dağlarda möhtəşəm qalalar quraraq, elin-obanın ağır günlərində bu tərlan oylaqlarında at minib, qılınc oynadıb, qalxan gəzdirib, yağı düşmənə qan uduraraq, arxa-dayaq olublar yurd yerlərimizə. Odlar yurdu Azərbaycan azadlıq uğrunda döyüşlərdə odürəkli oğullarına, qızlarına arxalandığı kimi, vüqarlı dağlarına, odlu məbədlərinə, onların etibarına da bir o qədər güvənib. Onlar da kürək-kürəyə, çiyin-çiyinə dayanaraq azman sədlər kimi gecəli-gündüzlü keşiyini çəkibdir, doğma yurdumuzun. Qala divarlarında tikilən mazqal və bürclərdən qalaya yaxınlaşmaq istəyən düşmənə daş, ox, nizə yağdırıb, od ələyiblər.

Qədim tarixi qaynaqlardan məlum olur ki, o taylı-bu taylı doğma Azərbaycanımızın elə bir guşəsi, elə bir bölgəsi olmayıb ki, orada başı göylərə ucalan möhtəşəm qalalara, bürc, qüllə, istehkamlara, onların qalıqlarına rast gəlinməsin. Əlincəqala, Çıraqqala, Bəzz qalası, Girdman qalası, Cavanşir qalası, Ərk qalası, Zərdüşt qalası, Qız qalaları, Dərbənd qalası, Abşeron qalaları, Fit qalası, Qəhqəhə qalası, Pəri qalası, Gülüstan qalası, Koroğlu qalası, Əsgəran qalası və s. Dizləri bükülməz bahadırlarımızdan yadigar qalan belə qalalardan biri də "Gələrsən-Görərsən" qalasıdır.

***Bu qala bizim qala,***
***Həmişə bizim qala.***
***Tikmədim özüm qalam,***
***Tikdim ki, izim qala.***

"Gələrsən-Görərsən" qalası (Bəzi mənbələrdə "Gəl-Gör-Get qalası" kimi qeyd olunur) Şəkinin Kiş kəndinin şimal-şərqində, Kiş çayının qollarından biri olan Damarçın çayının sol sahilində, Qaratəpə dağının üzərində yerləşir. Qaratəpə dağının arxasında isə yüksək dağlar sıralanır. Qalanın belə bir yerdə salınmasının əsas məqsədi odur ki, sıldırım olduğuna görə qalaya öndən, arxadan və çay tərəfdən hücum etmək mümkün deyil. Qala ilə Kiş kəndi arasındakı ərazi Qala düzü də adlanır. O da maraqlıdır ki, rus yazıçısı Lev Tolstoyun məşhur "Hacı Murad" povestinin qəhrəmanlarının başına gələn hadisələrin də məhz bu qalada cərəyan etdiyi bildirilir. "Gələrsən-Görərsən" qalası sındırılmış çay daşlarından inşa edilmiş və divarlarının qalınlığı bəzi yerlərdə 2,7 metrə çatan qala hündür bürclərlə (7 metr) əhatə olunub. Şəki şəhərinin özü qala divarları ilə əhatə olunmadığından, düşmən hücumu zamanı əhali "Gələrsən-Görərsən" qalasına sığınırdı. Vaxtilə qalanın möhkəm bəndi, sıldırım dağlarla əhatələnməsi, azman bürclərə və qüllələrə malik olması təkcə şəhər əhalisinin təhlükəsizliyini qorumur, həm də özünəməxsus təbiətə malik bu yurdda namus və qeyrət rəmzi kimi qürurla dayanırdı.

Qalanı seyr etdikcə qandan-qadadan, amansız savaş və qovğalardan xəbər verən ötən çağlar gözümüz qarşısında canlanır. At dırnaqlarının şimşək kimi çaxan taqqıltısı titrədərdi



bu dağları. Adama elə gəlir ki, keçmiş hadisələrin dilsiz şahidi olan bu qalanın möhkəm divarları, uca bürcləri, nəhəng qüllələri, möhtəşəm istehkamları öz əzmi ilə yenilmək, əyilmək bilməyən ərənlərdi, ana yurdun keşiyində dayanıb, onu yadellilərdən qoruyur.

Qalada əsaslı arxeoloji işlər aparılmasa da, müəyyən vaxtlarda axtarışlar nəticəsində buradan müxtəlif maddi-mədəniyyət nümunələri-bişmiş kərpicdən və çay daşlarından tikilmiş yaşayış evlərinin qalıqları, təsərrüfat quyuları, saxsı qab qırıqları, hovuz, inşaat materialları və s. aşkar olunub. Qalanın coğrafi mövqeyi, möhkəm divarları və sıldırım olması onu sarsılmaz müdafiə istehkamına çevirib.

Qalanın müdafiə məqsədilə tikildiyini qeyd edən görkəmli maarif xadimi Rəşid bəy Əfəndiyev şəkililərin düşmən təhlükəsi zamanı "Gələrsən-Görərsən" qalasına sığındığını qeyd edir. Şəki xanlarının nəslindən olan Azərbaycan tarixçisi Kərim ağa Fateh "Şəki xanlarının müxtəsər tarixi" əsərində qalanın möhkəmliyindən bəhs edərək yazırdı: "Gələrsən-Görərsən" qalası çox hündür və möhkəm olmasına görə heç kim tərəfindən alına bilməmişdir". XIX əsrin görkəmli Azərbaycan tarixçisi Abbasqulu ağa Bakıxanov da "Gülüstani-İrəm" əsərində böyük ustalıqla tikilmiş bu qalanın möhkəm və alınmaz olduğunu qeyd etmişdir.

### Bilinməyir yaşın sənin, Nələr çəkmiş başın sənin

Qalanın neçənci əsrdə və kim tərəfindən tikildiyi barədə dəqiq məlumat yoxdur. Bəzi müəlliflər onun tarixini XVI əsrə aid etsələr də, bir sıra mənbələr abidənin daha əvvəlki dövrlərdə inşa edildiyini xəbər verir. Məsələn, ərəb müəllifi İbn Ərəbşahın yazdığına görə, 28 iyul 1402-ci il tarixdə baş vermiş məşhur Ankara döyüşündən Qarabağa geri dönən Əmir Teymur yolüstü iki istehkamı bir müddət mühasirədə saxlayıb və nəhayət, onları ələ keçirib. Bunlardan biri "Mağaralıq" deyilən yer, digəri isə "Gəl-Gör-Get" qalası olub. Ehtimal etmək mümkündür ki, həmin "Gəl-Gör-Get" qalası indi xarabalığı Şəki rayonunun Kiş kəndindən 1 km şimalda olan "Gələrsən-Görərsən" qalasıdır. Qalanın İbn Ərəbşah tərəfindən verilmiş təsviri də məhz "Gələrsən-Görərsən" qalasına uyğun gəlir.

Digər tarixi qaynaqlara əsaslanan tədqiqatçılar da "Gələrsən-Görərsən" qalasının hələ XVI yüzilliyin əvvəllərində müdafiə istehkamı kimi istifadə edildiyini, digərləri isə onun daha qədimdən məlum olduğunu söyləyirlər. 1524-cü ildə Şəki hakimi, yerli feodal Dərviş Məhəmməd xan Səfəvi hökmdarı I Təhmasibin Şirvana hücumu zamanı öz döyüşçü dəstələri ilə Şirvanşaha kömək edib. Məşhur Azərbaycan tarixçisi Həsən bəy Rumlu "Əhsən-üt-tarix" əsərində 1551-ci ildə Təhmasibin Şəkiyə hücumu zamanı Dərviş Məhəmməd xanın "Gələrsən-Görərsən" qalasında möhkəmləndiyni təsvir edib.

Bəs görəsən, qalanın adı öz mənşəyini haradan götürüb? "Gələrsən-Görərsən" adı qalaya hansı tarixi hadisələrlə əlaqədar verilib?

Tarixçilərin verdiyi məlumata görə, 1743-cü ildə Nadir şah böyük qüvvə toplayıb, təpədən dırnağa qədər silahlanmış 30 minlik nizami qoşunu ilə Şəkiyə yürüş edib. Düzənlikdə açıq savaşda onunla bacara bilməyəcəyini dərk edən Şəki vilayətinin hakimi Hacı Çələbi xan qalaya sığınaraq müqavimət göstərməyi qərara alıb. Nadir şah Hacı Çələbi xana məktub yazaraq qalanın təslim edilməsini tələb etmiş, əks halda torpağını yerlə-yeksan edəcəyini, qaladakıların hamısını qılıncdan keçirəcəyini bəyan edib. Qalanın igid müdafiəçiləri isə ona açıq cavab verərək "Gələrsən, görərsən" - deyiblər.

"Gələrsən-Görərsən" qalasında baş vermiş bu hadisə ilə bağlı başqa variantlar da vardır. Həmin variantların birində nəql olunur ki, XVIII əsrin əvvəllərində Şəki xanı Hacı Çələbi xan Nadir şahın nümayəndəsi Məlik Nəcəfin xalqı soymasına və incitməsinə imkan vermirdi. Məlik Nəcəf bu barədə Nadir şaha şikayət edir. Şah da Hacı Çələbini yanına çağırıb ona xəbərdarlıq edir. Hacı Çələbi Məlik Nəcəfə mane olmayacağı barədə şaha söz verir, lakin Şəkiyə qayıdan kimi onu öldürtdürür. Bundan qəzəblənən Nadir şah böyük bir qoşunla Şəkiyə hücum edir. Nadir şahın Hacı Çələbinin yanına gələn nümayəndəsi bildirir: "Şah buyurur ki, qoy könüllü surətdə mənə təslim olsun. Əks təqdirdə o, başını harada gizlədər". Hacı Çələbi də elçiyə belə cavab verir: "Şahınıza deyin ki, gələrsən, görərsən, mən başımı harada gizlədərəm". Deyilənə görə, elə o vaxtdan da qala "Gələrsən-görərsən" adlanır.

Digər oxşar rəvayətdə qeyd olunur ki, Nadir şahla Hacı Çələbi xanın üzbəüz duran qoşunları uzaqdan-uzağa, qışqıra-qışqıra danışa bilirlərmiş. Bir dəfə Nadir şah özü danışığa girir və şəkililərdən soruşur: "O necə qaladır ki, onu almaq olmur?". Ona belə cavab verirlər: "Gələrsən-Görərsən". Deyilənə görə, elə o vaxtdan qala belə adlanıb. Bütün bunlardan sonra Nadir şahın qoşunları hücuma başlayır. Lakin qalanın müdafiəçilərinə qarşı döyüşlərdə heç bir müvəffəqiyyət qazanmayan şah geri çəkilməyə məcbur olur. Həmin hadisələrin canlı şahidi olmuş Rusiyanın Nadir şahın yanındakı rezidenti V.Bratişşev özünün 1744-cü il 13 aprel tarixli məlumatlarında yazırdı: "Keçən günlərdə şah Şəki sınağına yaxınlaşdı və üç gün orada daynıb piyadaların iştirakı ilə böyük hücuma başladı. Lakin... müqabil tərəf müqavimət göstərdiyindən, ancaq 46 adam öldürüldü və əsir götürüldü, başqa müvəffəqiyyət qazana bilmədi. Bunun əksinə, iranlıların tələfatı daha çox idi, onların yüzdən artıq adamı öldürülmüş və bir neçəsi yaralanmışdı". Beləliklə, şəkililərin inadlı müqaviməti nəticəsində Nadir şah mühasirədən əl çəkməyə məcbur olmuşdu.

Lakin müəyyən müddət sonra Nadir şah yenidən qala üzərinə hücuma keçir. Əhali işğalçılara qarşı mübarizəyə qalxır və düşmənə ciddi müqavimət göstərir. Şahın dəliqanlı atlıları nə qədər canfəşanlıq etsələr də, qala divarlarına yaxın düşə bilmirlər. Qala divarlarına çatanların başına hər tərəfdən çay daşları yağdırır, yanar qətran tökürdülər. Qətranlı məşəllərin tüstüsündən "Gələrsən-Görərsən" qalası duman içində görünməz olmuşdu. Düşmənin nərdivan daşıyan döyüşçüləri su doldurulmuş xəndəklərdə ilişib qalırdılar.

Şəkililər azadlıq uğrunda döyüşlərində həmişə od ürəkli oğullarına arxalandıqları kimi, kişi qeyrətli sonalarına – igid qızlarına da güvəniblər. Çünki qızlar da çəpər, sipər olublar doğma el-obaya. "Aslanın erkəyi-dişisi olmaz" – deyiblər müdrüklərimiz. Şəkililər üç il aclıq və çətinliklərə məruz qalsalar da, "Gələrsən-Görərsən" qalasını təslim etməmiş, düşməni əldən salandək vuruşmuşlar. Yenə də heç bir müvəffəqiyyət qazanmayan şah ordusu kor-peşman geri dönmüşdü.

*(ardı var)*

***Tofiq BABAYEV,***
***Tahir ŞAHBAZOV,***
***AMEA Arxeologiya və Etnoqrafiya İnstitutunun aparıcı elmi işçiləri, tarix üzrə fəlsəfə doktorları***